# DÖYÜŞÇÜ İRADƏSİ



Azərbaycan tarixi taleyində xüsusi yeri olan müharibələrdən biri də İkinci Cahan savaşıdır. Çünki, bu savaşda dünya ağalığı iddiasına düşmüş Hitler bakını tutmağa xüsusi önəm verirdi. Ona görə də "İkinci cahan" savaşı ilə bağlı xatirələr, yazılar gənclərimizin vətənpərvərlik tərbiyəsində xüsusi əhəmiyyətə malikdir. Şəddad Cəfərovun "Qorxu bilməz döyüşçü" sənədli hekayəsi "İkinci cahan" savaşının qəhrəmanlarından birinə həsr olunub. Əli Babayev adlı həmin döyüşçü müharibə boyu keçdiyi döyüş yolunun xatirələrini yeni nəslə danışır, gənc nəsli ruhən döyüşlərə hazırlayır. Şəddad Cəfərovun bu hekayəsində azərbaycanlı qəhrəmanın döyüşün ən ağır yerlərində göstərdiyi igidliklər tərənnüm olunur. Şəddad Cəfərov müdrik, kifayət qədər yaşı olan veteran kimi qəhrəmanların necə örnək olduğunu yaxşı bilir. Onu da yaxşı bilir ki, müharibələrin tarixinə biganə yanaşmaq olmaz. Müharibələr tarixi bəşər nəsli üçün ötüb keçmiş zaman deyil, bu savaşlar, qanlı qırğınlar yalnız tarixin bir səhifəsi kimi öyrənilmir. Şəddad müəllimin sənədli müharibə hekayələrində döyüşçülərin həyat yolu həm qəhrəmanlıq tərəfindən təqdim olunur, həm də onların yeri gəldikcə humanizmi, insanpərvərliyi həssas bir münasibətlə yazıya gətirilir. Çünki Şəddad müəllim bilir ki, nə qədər ki, insan övladının tamahı var, öz iddiasının üstünlük istəyi var, demək müharibələr də qaçılmazdır. Bəs müharibəni necə aparasan ki, qalib gələsən? bunun üçün birinci növbədə müharibələr tarixi yaxşı-yaxşı öyrənilməli, müharibə iştirakçılarının həyatına münasibətdə həssas olmağı, döyüşdə həlak olanların xatirəsi əziz tutulmalı... bütün bunlarla birlikdə həm də müharibələrin necə aparıldığı öyrənilməlidir. Çünki bu müharibə səhifələrinin elə məqamları var ki, yeni döyüşlər zamanı tarixi təcrübə kimi işə yarayır. Şəddad müəllim "Qorxu bilməz döyüşçü" hekayəsində topçu Əli Babayevin igidliyini döyüş məqamında göstərir. Əli Babayev nə qədər ağır döyüşlərə düşsə də bunların hamısından qəhrəmanlıqla qalib çıxır. Əli Babayev komandir kimi yaxşı bilirdi ki, müharibədə döyüşçünün birinci silahı onun ağılı, düşüncəsi, iradəsidir. Əlbəttə, ikinci silah texniki vasitələrdir. Nə qədər ki, texniki vasitələrdən istifadə olunur, bir o qədər də döyüşçü özünün fəhmindən, duyumundan da yararlanmalıdır. Şəddad Cəfərov "Qorxu bilməz döyüşçü" hekayəsinin qəhrəmanı ilə bizi Moskva ətrafında gedən döyüşlərdə - gərgin məqamlarda görüşdürür: "Baş çavuş Əli Babayev və onun artileriyaçıları Moskva ətrafında gedən döyüşlərdə hər cür çətinliyə təsadüf etmiş, hər bir əziyyətə sinə gərmişlər. O günlərdə yuxunun nə olduğunu bilmirdilər. Sakitçilik çökəndə də silahları təmizləməklə məşğul olurdular... mövqelərini tez-tez dəyişirdilər. Yerdəyişmələr atəşlərlə əvəz olunurdu. Çətin marşlar - atəş dueli, yenə marş və yenə də döyüş". Beləliklə, biz Azərbaycanın uzaq dağ kəndindən gələn bir gəncin döyüşlərdə bişmiş bir qəhrəmana çevrilməsindən sonrakı məqamları görürük. O, qorxunun nə olduğunu bilmir. Dəfələrlə ağır döyüşlərdən keçir. Şəddad Cəfərov müharibə həyatını kifayət qədər yaxşı bilir. Çünki onun atası ağır müharibənin iştirakçısı olmuşdu. Özü müharibə dövrünün ağır həyatını yaşayıb. Ona görə də döyüşçü həyatı ilə bağlı əhvalatlarda döyüşün də xarakterini dəqiq, anlaşıqlı, hətta döyüş terminlərindən istifadə etməklə verə bilir. Onun bu sənədli hekayəsində "atəş dueli" ifadəsi var. Bu ifadənin əks etdirdiyi məna belədir ki, bəzən topçular bir-biri ilə müəyyən məsafədən üz-üzə gəlir və onlar bir-birinin mövqelərini vurmağa çalışırlar. Burada əsas odur ki, kim daha dəqiq, sərrast zərbə endirəcək. Bunun üçün vaxtı itirmədən, təmkinini pozmadan məqsədinə nail olmağa çalışmalısan. Əli Babayevin düşmən tankları ilə ilk görüşünü Şəddad müəllim belə verir: "Baş çavuş nə tank mühərrikinin səsini, nə də tırtılların cingiltisini eşitmədən, otuz metr məsafədən tankın düz onun üstünə gəldiyini gördü. Düşmən tankı səhər alatoranlıqdan çıxırdı". Burada Əli Babayevin özünü itirməməsi, düzgün əmr verməsi göstərir ki, müəllif öz qəhrəmanını yaxşı tanıyır. Onun hər hansı bir gərgin məqamda necə əmr verdiyini, özünü necə apardığını müşahidə etmək, öyrənmək və bunu yazıda əsaslandırılmış şəkildə vermək o deməkdir ki, müəllif müharibə elmini yaxşı gətirmək gücündə öyrənə bilib. Əli Babayevin əsgərləri tanklardan birini vura bilirlər. Ancaq digər tanklardan pulemyotçuların atəşləri başlayır. Demək, əslində, topçularla, tankçılar çox yaxın məsafədə üz-üzə gəliblər. Müəllifin tərənnüm etdiyi qəhrəman əslində döyüş vəziyyətinin idarə edicisidir: "Hitlerçilərin tank, pulemyotları işə düşdü. Üstəlik tanklar da aramsız atəş açmağa başladı. Mərmilər bizim mövqeyimizin üstündən uçduğundan hava dalğası döyüşçülərimizin sağlamlığına təsir etdi, onların qulaqlarında kəskin və fasiləsiz uğultu yarandı. İndi artıq baş çavuş Babayev əslində əmrləri özü-özünə veririd, çünki onu heç kim eşitmirdi. Lakin döyüşçülər öz rəhbərliyini komandasız da başa düşməyi öyrənmişdilər. Qatı duman kimi tozun içərisindən başqa bir silahın çəhrayı alovu göründü. Və bir azdan düşmən tankının atəşi susdu. Döyüşçülər qalib gəldilər. Mərmi daşıyan əsgər qamətini düzəldib, sol əli ilə mərmini özünə sıxdı, sağ əliylə alnının tərini sildi, sonra razılıqla gülümsündü..." Buradakı psixoloji situasiya çox maraqlıdır və oxucunu uzun illər bundan əvvəlki müharibənin ən gərgin məqamına çəkib aparır. Döyüşçü ən gərgin məqamda öz missiyasını yaxşı bilir. Komandirlə əsgərlər arasındakı əlaqə o qədər sıx və doğmadır ki, onun ən kiçik işarəsini belə döyüşçülər göydə tutur, başa düşürlər. Vəziyyət aydınlaşandan sonra mərmi daşıyan əsgərin təbəssümü həm komandirin təbəssümüdü, həm də bu əsəri yazan müəllifin təbəssümüdür. Şəddad Cəfərovun hekayəsinin müharibə səhnələri canlılığı ilə seçilir. Sanki oxucu güllənin öldürücü vahiməsini duyur. Sanki oxucu özünü Babayevin yanında hiss edir. Babayev isə sanki yanındakılara təlqin edir ki, qorxmazlıq igidin birinci silahıdır. Biz hekayədə oxuyuruq: "Başqa bir döyüşdə baş çavuş Babayev özü alman tankını vurdu. Lakin sağ qalmış düşmən desantı onların üstünə hücuma keçdi. Əlbəyaxa döyüş başlandı. Avtomat, bıçaq və qumbaralara əl atıldı. Bu dəfə də igid, cəsur topçular qalib gəldilər. Onlar düşmənin xeyli döyüşçüsünü məhv edib, qalanlarını isə əsir götürdülər. Sonra Babayevin igidləri düşmənin 2 zirehli tankını məhv etdilər". Babayevin əsgərləri ona görə qorxmazdır, igiddirlər ki, onlar öz komandirlərinə inanırlar. Onlar bilirlər ki, Babayev olan yerdə heç bir düşmən texnikası onların canlı səddini yarıb keçə bilməz. Bir sözlə, döyüşdə döyüşçünün iradəsi və əzmi o zaman öz gücünü göstərə bilir




ki, döyüşçünün öz komandirinə hədsiz inamı olur. Komandir öz ətrafında inamlı döyüşçülərdən düşmən qarşısını kəsmək üçün sədd yaradır. Bu səddin mahiyyəti döyüşçünün iradəcə sarsılmazlığıdır. Nəticədə qələbə əzmidir. Bütün bunlar bir yerə cəmləşəndə döyüşçü qüdrəti tarixin həlledici gücünə çevrilir. Əli Babayevin keçdiyi döyüş yolu Moskva altında, Visla və Oder çayları boyunca apardığı döyüşlər, Xarkov şəhərinin alınması uğrunda igidliklər... bütün bunların hamısı bir-birini əvəz edən döyüş səhnələrinin ən gərgin situasiyalarında xarakterinin müxtəlif tərəflərini üzə çıxarır. Müəllif yazır: "Ardı-arası kəsilməyən döyüşlər getdikcə bir-birini əvəz edirdi. azərbaycanlı Əli Babayev ağır döyüşlərdən məharətlə qalib çıxırdı. Müharibə yolları çox ağır, üzücü idi. Döyüşlər, hospital, yenə döyüşlər. Bu ağır günlərin qiyməti Babayevin sinəsini bəzəyən döyüş mükafatları idi". Komandir Əli Babayevin döyüş yolu bugünkü gənclərimiz üçün də örnək ola bilər. Çünki Əli Babayev dəfələrlə yaralanıb sağalsa da tərxis olunmaqdan imtina edir. Yenidən döyüş mövqeyinə qayıdır. Hətta onun döyüşqabağı situasiyadakı döyüşçüləri ayaqda saxlamaq üçün söhbətləri son dərəcə maraqlı və qiymətlidir. Biz Şəddad Cəfərovun təqdimatında qəhrəmanın həyat yolunu demək olar ki, ətraflı izləyə bilirik. Bəzən, qəhrəmanın düşmən tankları ilə aradakı məsafəni izləmə məqamlarındakı psixoloji gərginliklər göstərir ki, qəhrəman nə qədər təmkinlidir. O üstünə gələn ölümdən qorxub geri çəkilmir. Ölümə qarşı yerimək əzmindədir. Sıradan çıxardığı tanklar düşmən cəbhəsinin yarılmasına şərait yaradır. Və belə döyüşlərdəki şücaətinə görə Əli Babayev "Qırmızı ulduz" ordednilə təltif olunur.

Müharibə veteranının taleyi Vətənin taleyi ilə sıx bağlıdır. Qəhrəmanları təbliğ etmək, yeni nəslə tanıtmaq Azərbaycanın indiki halı üçün çox gərəklidir.

Tovuz rayonu ərazisində erməni faşistləri ilə döyüş bizə anladır ki, Əli Babayevlərin hərbi təcrübəsi bu gün də bizə lazımdır. Görünür, elə bu səbəbdən də müdrik müəllif qəhrəman Əli Babayevlə oxucusunu yaxından tanış edir. O istəyir ki, oxucu Əli Babayevi yaxşı tanısın, onun həyat yolunu öyrənsin: "Azərbaycanın şanlı oğlu, Qax rayonun İlusu kəndində anadan olmuş Əli Osmanoğlu Babayev böyük döyüş yolu keçmiş və Berlinin alınmasında, Visla və Oder çaylarının fəth edilməsində iştirak etmişdir. Bu döyüş yolunda çoxlu ölüm, dirim mübarizələri, qalın tüstüyə bürünmüş yanğınlı gecə və gündüzlər, ölüm saçan güllələr, yaralanmalar... ona kiçik leytenant rütbəsi verilir. Əli Babayev iki dəfə yaralanıb, hospitalda müalicədən sonra öz hərbi hissəsinə qayıdıb. Onun hərbi hesabında onlarla vurulmuş düşmən tankı, topu, pulemyotu, çoxlu canlı qüvvəsi var, bundan başqa, çoxlu əsgər və bir general əsir alınmışdır". Şəddad Cəfərov Əli Babayevin obrazında igid azərbaycanlını bizə tanıdır. Alman faşistinin başının öz yuvasında əzilməsində azərbaycanlıların çox böyük köməyi olmuşdur. Müharibədən sonra məktəblilər ondan təltiflərinin səbəblərini soruşurlar. Bu təltiflərdən biri də "İgidliyə görə" medaldır. Əli Babayev bildirir ki, bu medalı o, Xarkov şəhərinin azad olunmasına görə alıb.

Hər bir müharibə veteranının həyatda olduğu gün çox əhəmiyyətlidir. İnsanlar onların timsalında canlı qəhrəmanları görürlər. Müəllif bu hekayəni yazarkən qəhrəmanı ilə yaxından təmasda olub: "30 ildən artıqdır ki, Əli Babayev Qax rayon veteranlar təşkilatına rəhbərlik edir. O, gənclərin düzgün tərbiyə olunmasında, onlara öz əmək təcrübəsini, vətənpərvərliyi, qəhrəmanlığı və əməksevərliyi öyrətməkdə bilik və bacarığını əsirgəmir". Bu müəllifin qorxubilməz döyüşçü haqqında hekayəsinin son cümlələridir. Bu hekayənin bu gün üçün də əhəmiyyəti böyükdür. Gənclərin mənəvi cəhətdən silahlanmasında qorxubilməz bir ruhda böyüdülməsində mühüm əhəmiyyətə malikdir.

Bu gün Azərbaycan sərhədlərində döyüş gedir. Qəhrəman əsgərlərimiz dövlət sərhədlərimizi qoruyaraq şəhid olsalar belə, qəhrəmanlıq salnamələri yaradırlar. Şəddad Cəfərov da öz hekayəsində döyüşçü iradəsinin nəyə qadir olduğunu göstərir.

Bu il faşizm üzərində qələbənin 75 illiyi qeyd olundu. Yəqin ki, bir vaxt olacaq erməni faşistləri üzərində qələbəmizin təntənəsini gələcək nəsillər yaşayacaqlar. Yazıçıların orduya, döyüşçüyə mənəvi dayaq olması əslində elə düşmənə qarşı onların da apardığı savaşın təzahürüdür. Şəddad Cəfərovun müharibə mövzusundakı hekayələri, yazıları bu baxımdan çox dəyərlidir. Bu hekayəni Şəddad Cəfərov Aleksandr Qriçenkonun "Pobeda i pamyat" kitabında nəşr etdirib.

*15.07.2020*